

# Azərbaycan Ordusu Ermənistanı təşvişə salıb

Son günlər Ermənistan tərəfi yenidən təxribatları intensivləşdirib. Lakin Azərbaycan Ordusu düşmənə layiqli cavab verərək təxribatları dəf edib. Bundan əlavə, Azərbaycan Ordusunun anti-təxribat cavabları düşmən tərifi qorxuya salıb. Bu səbəbdən də Ermənistan rəhbərliyi üzbəüz döyüş məntəqələrində möhkəmlənmə işlərinə başlayıblar.

Səh.5

UNİKAL

№37 (1976) 3 avqust 2019-cu il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru



# Dənizi hasarlayanlardan biri də Kəmaləddin Heydərov imiş...

## Sadə vətəndaşları dənizin üzünə həsrət qoyanlar hökuməti sabotaj edirlər

Unikal.org saytı yola salmaq üzrə olduğumuz həftə olduqca maraqlı məlumat yaymışdı. Həmin məlumatda deyilirdi ki, Fövqəladə Hallar Naziri, general-polkovnik Kəmaləddin Heydərovun Xəzər rayonu Şüvəlan qəsəbəsində yerləşən villası üzə çıxıb. Sayta daxil olan görüntülərdə, Kəmaləddin Heydərova məxsus, qiyməti milyon dollarla dəyərləndirilən villa Şüvəlan qəsəbəsində Mayak deyilən ərazidə yerləşir. Ərazinin bir hissəsi dəniz sahəsinə düşür. Nazir mütəmadi olaraq dincəlmək üçün, sözügedən ərazidə saxladığı yaxta ilə dəniz səyahətinə çıxır. Bu xəbəri xüsusilə diqqətçəkən edən "fövqəlnazir"in məhz dənizi hasarlamaq hesabına mülk sahibi olmasıdır; hansı ki, bu məsələ uzun müddətdir mətbuatın və ictimaiyyətin diqqət mərkəzindədir.

Səh.8

Səh.3

# Ölkədə "qarayara" xofu



## "Əgər süni qiymət artımı Prezident səviyyəsində müzakirə olunursa..."



Məlum olduğu kimi, iyulun 31-də sosial-iqtisadi sahə ilə bağlı keçirdiyi müşavirədə prezident İlham Əliyev süni qiymət artımı məsələsinə toxundu. Ölkə başçısı bildirdi ki, baxmayaraq ki, inflyasiya aşağı səviyyədədir, ancaq bəzi hallarda süni qiymət artımı da müşahidə olunur.

Səh.4

## Razim Məmmədovun başı üzərində " qara buludlar"...



Xətai rayon Mənzil Kommunal Təsərrüfat Birliyinin rəisi Əvəz İsmayılov vəzifəsindən azad edilib. Unikal.org-un əldə etdiyi məlumata görə, bu barədə Xətai rayon İcra başçısı vəzifəsini əvəz edən, (rəsmi müavin) Rafiq Quluyev əmr imzalayıb. Ə.İsmayılovun yerinə isə, qurumun baş mühəndisi Babayev Sahib Xudaverdi oğlu müvəqqəti olaraq təyin olunub.

Səh.9

## Oliqarx bankları Elman Rüstəmovu dinləmir...



Azərbaycan bankları 500 avroluq əsginaslara komissiya haqqı almağa davam edirlər. Bu barədə "Unikal"a bank sektorundakı mənbələrdən məlumat daxil olub. Qeyd edək ki, ölkədəki bankların əksəriyyəti 500 avroluq pul nişanının qəbuluna bir faizlik komissiya haqqı müəyyənləşdirib. Bu isə iqtisadçıların və vətəndaşların haqlı narazılığına səbəb olub.

Səh.6